Tarix və onun problemləri, № 1 2011

**GÜLNAR İSMAYILOVA**
*Lənkəran Dövlət Universiteti,*
*Tarix və Fəlsəfə kafedrası,*
*Azərbaycanın yeni və ən yeni tarixi fakültəsi.*
*E-mail: azeriqizi_1985@mail.ru*

# XX ƏSRIN ƏVVƏLLƏRINDƏ AZƏRBAYCANDA ICTIMAI-SIYASI HƏRƏKATININ 40-60-CI ILLƏR TARIXŞÜNASLIĞINDAN

**Açar sözlər:** hərəkat, tətil, ictimai, nümayiş, siyasi

**Keywords:** movement, strike, social, demonstration, political

**Ключевые слова:** движение, забостовка , общественный, демонстрация, политический

XX əsrin əvvəlləri Azərbaycan xalqının tarixinin ziddiyyətli, keşməkeşli dövrünü təşkil edir.Bu dövr xalqımızın tarixində həm faciələrlə, məhrumiyyətlərlə və eləcə də mədəni muxtariyyətdən ərazi muxtariyyətinə və nəticə etibarilə milli dövlət müstəqilliyinə aparan milli-azadlıq hərəkatının başlandığı dövr olmuşdur.Bu dövrün tarixi proseslərini obyektiv olaraq tədqiq etməyə, tarixi tədqiqatlarda yol verilmiş təhriflərin aradan qaldırılmasına hələ də ehtiyac vardır.Ona görə də bu mövzunu tarixşünaslıq baxımından araşdıraraq, yuxarıda göstərilən təhrifləri aradan qaldırmağı qarşımıza məqsəd qoymuşuq.

Bakıda 1900-1904-cü illərdə baş verən siyasi nümayişlər və tətillər hərəkatı mövcud siyasi vəziyyətə uyğun olaraq, XX əsrin 40-60-cı illərinin tarixşünaslığında araşdırılıb. Z.İbrahimov, Ə.Dadaşlının "Bakı ümumi tətilinin 40 illiyi", M.Qazıyevin "Bakıda 1904-cü il dekabr ümumi tətilinin 50 illiyi", H.İ.Qasımovun "Ölkəmizdə ilk müştərək müqavilənin bağlanması və onun əhəmiyyəti", Y.Rathauzerin "Şanlı yubiley.Bakı proletariatının 1903-cü ilin iyun ayındakı çıxışları haqqında" və digər məqalələrdə öz əksini tapmışdı.(Bax:1,s. 6.)

İctimai-siyasi hərəkatın tədqiqi 1961-ci ildə yazılan "Azərbaycan tarixi"nin 3 cildliyində mülki tarix səpkisində verildiyi kimi, 1964--cü il "Azərbaycan Kommunist Partiyasının oçerkləri"ndə də əks olunub. Hər iki kitabda bolşevik partiyasının yaranıb fəhlə hərəkatına rəhbərliyi ələ alması qabarıq şəkildə göstərilib.

1901-1904-cü illərdə Bakı proletariatının siyasi nümayişləri və tətil hərəkatı tarixinin sistemli tədqiqi görkəmli Sovet tarixçisi Ə.N.Quliyevin əsərlərində tədqiq olunmuşdur.Müəllifin 1954-cü ildə " Вопросы истории" jurnalının 12-ci nömrəsində gedən "1904-cü ilin dekabrında Bakı fəhlələrinin tətili" adlı məqaləsində XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın sosial – iqtisadi vəziyyətinin xarakteriskasını açaraq neft sənayesinin inkişafı və bu inkişafla əlaqədar olaraq fəhlə sinfinin say tərkibinin artmasını,onun milli tərkibini konkret rəqəm və faizlərlə vermişdir.

Ə.N.Quliyev "1904-cü ildə Bakıda tətillər" adlı sənədlər məcmuəsində göstərirdi ki, "1904-cü ildə Bakı neft mədənlərində çalışan fəhlələrdən 11300 nəfəri(41,5%) azərbaycanlı və Kazan tatarları,7200 nəfəri (26,5%) rus, 4900 nəfəri (18 %) erməni və 3800 nəfəri (14%) digər millətlərdən idi. 1904-cü ildə Bakıda 61 minə qədər fəhlə çalışırdı.(Bax:2,s.26)

Fəhlələrin vəziyyəti və əmək şəraiti xarakterizə edildikdən sonra XIX əsrin sonlarında Bakıda fəhlə dərnəkləri və 1901-ci ildə RSDFP-nin Bakı Komitəsinin təşkili, "İskra" qəzetinin nəşrinin

əhəmiyyəti xüsusi qeyd edilərək,1902-1903-cü illərdə Bakıda baş vermiş siyasi nümayişlər məqalədə əksini tapıb.

Digər Sovet tarixçiləri kimi Ə.N.Quliyevdə inqilabi hərəkata rəhbərliyin yalnız bolşevik qanadını qəbul etmişdir. 1903-cü ildə Bakıda siyasi nümayişlər Ə.N.Quliyevin 1955-ci ildə Azərbaycan SSREA "Xəbərləri"nin VII nömrəsində "Bakıda 1903-cü il siyasi nümayişləri" adı altında nəşr olundu. Müəllif burada XIX əsrin əvvəllərində Azərbaycanı feodal- patriarxal ölkə kimi nəzərdən keçirərək onun Rusiyanın xammal bazası və satış bazarı funksiyasını daşıdığını vurğulayır. Məqalədə 1903-cü il martın 2-də keçirilmiş siyasi nümayişin əhəmiyyəti qeyd olunaraq, həmin nümayişi Bakı proletariatının mülkədar quruluşuna qarşı kütləvi etiraz və proletariatın döyüş qüvvəsinə baxış adlandırılır.

Müəllif "Bakı proletariatının şanlı qələbəsi" adlı monoqrafiyasının əvvəlində XIX əsrin axırlarından başlayan inqilabi mübarizənin səbəblərini vermiş, XX əsrin əvvəllərində güclənən rus fəhlə sinfinin mütləqiyyətə qarşı mübarizəsinin müstəmləkə əsarəti altında olan Azərbaycanı da lərzəyə gətirdiyini tarixi faktlarla sübut etmişdir. Müəllif Azərbaycanın geriliyinin səbəbini İran və Türkiyə əsarəti altında olmasında görərək yazır: "Geriliyin kökləri Azərbaycanın şah İranı və sultan Türkiyəsinin əsarəti altında olduğu ağır günlərindən miras qalmışdır." (Bax:3, s.6)

Əsərdə əsas yeri 1904-cü ilin dekabrında baş verən ümumbakı tətili tuturdu, burada tətilin baş verməsəbəbləri, onun hazırlanması, gedişi, irəli sürülən iqtisadi tələblər, sonda fəhlə sinfinin qələbəsi -kollektiv müqavilənin imzalanması, müqavilə şərtlərinin mahiyyəti, tətilin əhəmiyyəti şərh olunmuşdur.

1955-ci ildə Z.İbrahimovun "Ревалюция 1905-1907г. в Азербайджане " adlı monoqrafiyasında milli azadlıq mübarizəsi bolşevik konsepsiyası mövqeyində işıqlandırılmış, Azərbaycan patriarxal ölkə kimi nəzərdən keçirilmişdir. Monoqrafiyada müəllifin Bakını Azərbaycandan ayrı şəkildə əks etdirməsi Stalin rejiminin sərt qaydaları ilə bağlı olmuşdur. Müəllifin milli burjaziyaya mənfi münasibətinin səbəbi mütləqiyyətə qarşı mübarizədə onun öz mənafeyini həyata keçirmək məqsədi daşıması, milli azadlıq hərəkatını millətçi hərəkat kimi səciyyələndirilməsi məsələsi olmuşdur.

1969-cu ildə C.Hacınski "В огне ревалюционной борыбы" adlı monoqrafiyasında ilk dəfə Bakıda mədən- zavod komissiyalarının yaranması və fəaliyyətinin geniş planda şərhini vermiş, fəhlə sinfinin artım mənbələrini göstərmişdir. Müəllif neft sənayesindəki fəhlələri digər sənaye sahələrində çalışan fəhlələrlə əlaqələndirərək 1905-ci ilin yaz və yayında baş vermiş Bakı proletariatının inqilabi çıxışlarına daha çox siyasi don geydirmişdi.Milli burjuaziya və milli ziyalıların siyasi mübarizəsi müəllifin tədqiqatlarından kənarda qalmışdır.

İctimai-siyasi hərəkatın tərkib hissəsi olan kəndli hərəkatı XX əsrin 40-60-cı illərinin tarixşünaslığında araşdırılan məsələlərdəndir. Bu dövrün kəndli hərəkatından 1955-ci ildə M.A.İsmayılovun yazdığı "Birinci Rus İnqilabı dövründə Azərbaycanda kəndli hərəkatı" adlı əsərində bəhs olunur.Müəllif əsərdə kəndlilərin torpaqsızlıq və aztorpaqlılığa qarşı mübarizəsini, RSDFP Bakı Komitəsinin rəhbərliyi altında müstəmləkə rejimi, çar üsul-idarəsi və onun yerli dayaqlarına qarşı çıxışlarını şərh etmişdir. M.A.İsmayılov kəndli hərəkatı və sinfi mübarizənin əsas səbəblərindən birini feodal- təhkimçilik qaydalarının mövcudluğunda görərək, fəhlə-kəndli ittifaqı məsələsini marksizm nöqteyi-nəzərindən işıqlandırmışdır.

1960-cı ildə X.Əlimirzəyev "Azərbaycan kəndi sosialist inqilabının hazırlanması və qələbəsi uğrunda mübarizə dövründə" adlı monoqrafiyasında çarizmin kənddə yeritdiyi təhkimçi-müstəmləkə siyasətinə qarşı çıxışların hazırlanması və gedişini xüsusi boyalarla vermişdi. Müəllif yazır: "Kəndli

hərəkatı fəhlə çıxışlarının təsiri altında baş vermişdi."(Bax:4,s.32) Müəllif tarixi sənədlərin təhlilini dövrün tələblərinə uyğun izah etmişdi.

Bütövlükdə, yuxarıda adları çəkilən müəlliflərin dövrün sərt tələbləri altında qələmə aldıqları əsərlərdə Sovet rejiminin qoyduğu qadağalar mövzuya tam şəkildə obyektiv yanaşmağı mümkünsüz edir.Hər bir müəllif müəyyən dərəcədə tarixi hadisəni öz baxışları, fikirləri aspektində şərh etmiş, bəzən milli azadlıq hərəkatının Azərbaycan xalqının özünüdərkində oynadığı rolun üstündən ötüb keçməli olmuşlar. XX əsrin əvvəllərində baş qaldıran çıxışlar öz cəhətlərinə görə müstəqilliyə doğru gedən yolda yaşıl işıq olmuş, xalqın milli şüurunun oyanmasını göstərmişdir.

## ƏDƏBİYYAT:

1. Baxşıyev Ə."Birinci Rus inqilabı ərəfəsində və dövründə Azərbaycanda ictimai – siyasi hərəkatın tarixşünaslığı " (1960-1990-cı illər) Bakı 1999
2.Гулиев А.Н. "Стачка Бакинских рабоцих в декабре 1904 года " "Вопросы истории" № 12, 1954
3.Quliyev Ə.N. "Bakıda proletariatın şanlı qələbəsi" Bakı 1955
4.Əlimirzəyev X. "Azərbaycan kəndi sosialist inqilabının hazırlanması və qələbəsi uğrunda mübarizə dövründə" Bakı 1960
5. "Azərbaycan tarixi" II cild Bakı 1961
6. "Azərbaycan Kommunist Partiyasının oçerkləri" Bakı 1964
7. Ибрагимов З. "Ревалюция 1905-1907 гг. в Азербайджане" Баку 1955
8. İsmayılov M.A. "Birinci Rus inqilabı dövründə Azərbaycanda kəndli hərəkatı" Bakı 1955
9. Гянджинской Д.Д. "В огне ревалюционной борьбы" Баку 1969
10.Quliyev Ə.N. "Bakıda 1903-cü ildə siyasi nümayişlər" Azərbaycan SSR.EA "Xəbərlər" Bakı 1955

**ГЮЛЬНАР ИСМАИЛОВА**
***Ланкаран Государственные Университет,***
***Кафедра истории Азербайджана.***
**E-mail: azeriqizi_1985@mail.ru**

## ИЗ ИСТОРИОГРАФИИ ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОГО ДВИЖЕНИЕ В АЗЕРБАЙДЖАНЕ В 40-60 ГОДАХ XX ВЕКА.

Движения, которые происходили 40-60 годах XX века, исходили из историографии, которые были представлены на основе единой концепции. Несмотря на это время, было очень много несогласий о независимости и объективности. Было очень важно вмешательство в изучение исторических движений, народной свободы.

Народное свободное движение сыграла большую роль в истории Азербайджана XX века за свободу и независимость. С новым режимом Советской власти наш народ всегда был недовольным, несмотря на это вынуждены были, подчинятся законам Советской власти. Но когда Азербайджан стал независимой республикой, наша история стала вести свой объективный разбор. В этом было большая заслуга президента Азербайджана Г.Алиева. Народ понял, что каким должна быть история Азербайджана.

Tarix və onun problemləri, № 1 2011

**GULNAR ISMAILOVA**
***Lankaran State University,***
***Department of Newtime and modern history of Azerbaijan.***
**E-mail:azeriqizi_1985@mail.ru**

## AT THE BEGINNING OF THE 20TH CENTURY IN AZERBAIJAN THE THE PUBLIC-POLTICAL MOVEMENT IN THE 40TH AND 60TH YEARS HISTORY

The public-political movement which it happened at the beginning of the 20th century had been investigated for reseaching prepared at the centre of this century in the 40th and 60th years history on the basis of single conseption.In resears of this period thouhg it had hinders to be sounded of the independent and objective ideas the national freedom movement had been important connection at learning of our history. The national freedom movement of the 20th century had been significance for playing role on the streegle way in the direction of independence of Azerbaijan history.The authers who had to reseach our history under the strict lous of the soviet regime at this movement studies had been agreed with prohibitions of this period.But after restoring the independence of Azerbaijan Republic ,our history found its objective analysis with the connection of existence circumstance.The president of the Azerbaijan Republic her H.Aliyev had been irreplaceable services on this way the Azerbaijan history had been begun to be learned with the same.

***Rəyçilər: t.e.d. Ə.H. Baxşıyev, t.e.d. A.C. İskəndərov***
***Lənkəran Dövlət Universitetinin «Tarix və fəlsəfə» kafedrasının 12 yanvar 2011-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 07)***